AZƏRBAYCAN www.azerbaijan-news.az

# "Centre Daily News" qəzeti azərbaycanlıların soyqırımı haqqında məqalə dərc edib

Amerikada çıxan "Centre Daily News" qəzetində "Azərbaycanlıların soyqırımının ildönümü qeyd edilir" sərlövhəli məqalə dərc edilib.

Materialda 1918-ci ilin mart hadisələrindən - erməni quldur dəstələrinin Bakıda, Şuşada, Qubada, Şamaxıda və Azərbaycanın digər bölgələrində törətdiyi qırğından bəhs edilir. Qəzet yazır ki, 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti elan ediləndən sonra hökumət mart hadisələrini təhqiq edib. 1919-cu və 1920-ci illərdə 31 mart Azərbaycanda milli matəm günü kimi qeyd edilib. Sovet dövründə azərbaycanlılar həmin matəm gününü qeyd edə bilmirdilər, lakin 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyi bərpa ediləndən sonra bu hadisənin ildönümü rəsmi səviyyədə qeyd olunur.

Məqalədə bildirilir ki, 2009-cu və 2010-cu illərdə Nevada ştatının qubernatoru martın 31-nin azərbaycanlıların soyqırımı qurbanlarının Xatirə günü kimi tanınması barədə proklamasiya dərc edib. 2011-ci ildə Texas ştatından konqresmen Con Zervas analoji məzmunlu proklamasiya imzalayıb. Dünyanın bir neçə ölkəsi də azərbaycanlıların soyqırımını qanunvericilik səviyyəsində tanıyıb.


CENTRE DAILY TIMES

Marking Azerbaijani genocide

March 31 is known as the Day of Genocide of Azerbaijanis, referring to the tragic events that happened on March 31-April 1, 1918, as well as other tragic events in the 19th and 20th centuries that have brought enormous suffering to the Azerbaijani people. It is estimated that well over 500,000 Azerbaijanis have perished as a result of the Azerbaijani genocide.

After the proclamation of the Azerbaijani Democratic Republic on May 28, 1918, the "March Events" were investigated by the ADR government. In 1919-1920, the ADR observed March 31 as a national day of mourning. This was the first-ever genuine attempt to give political and legal assessment of the policy of genocide against Azeris. No other nation has commemorated genocide as early as 1919 but the Azerbaijanis. Despite this, the Azerbaijani genocide is not as well known in the world, particularly in the U.S.

Azerbaijani people were unable to commemorate the Azerbaijani genocide during the Soviet



Xatırladaq ki, məqalə ABŞ Azərbaycanlılar Şəbəkəsinin hər il keçirdiyi Amerika ictimaiyyətini Ermənistanın Azərbaycana qarşı təcavüzünün tarixi barədə məlumatlandırma kampaniyası nəticəsində dərc edilib.

*Yusif BABANLI,*
*AZƏRTAC-ın xüsusi müxbiri*

*Vaşinqton*